| | | |
|---|---|---|
| **Ümumi məlumat** | **Fənnin adı, kodu və kreditlərin sayı** | AZLL106, Azərbaycan dilində işgüzar və akademik kommunikasiya, 3 kredit,6 AKTS |
| | **Departament** | Dillər və ədəbiyyatlar |
| | **Proqram (bakalavr, magistr)** | Bakalavriat |
| | **Tədris semestri** | 2024/2025-ci tədris ilinin payız semestri |
| | **Fənni tədris edən müəllim (lər)** | Fil.ü.f.d.Sevinc Qəmbərova |
| | **E-mail:** | sevinj.gambarova@khazar.org |
| | **Telefon:** | |
| | **Mühazirə otağı/Cədvəl** | |
| | **Konsultasiya vaxtı** | Tələbələrlə razılaşdırılmış vaxtda |
| **Prerekvizitlər** | yoxdur | |
| **Tədris dili** | Azərbaycan | |
| **Fənnin növü (məcburi, seçmə)** | Məcburi | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | 1. Abdullayev Nadir. Nitq mədəniyyətinin əsasları. Dərs vəsaiti. Bakı, 2013.<br>2. Abbasəliyeva Ruxsarə. Dildə ekspressivlik və emosionallığın verbal və qeyri-verbal ifadə vasitələri. Bakı, 2018.<br>3. Aristotel. Ritorika. Birinci kitab. İkinci kitab. Üçüncü kitab. Bakı, 2008.<br>4. Bayramova Pərvin. Kommunikasiya prosesində qeyri-verbal ünsiyyət vasitələrinin rolu. Bakı, 2024.<br>5. Cəfərov Vəliyulla. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya. Dərs vəsaiti. Bakı, 2021.<br>6. Cəfərov Nizami, Mərdanova Samirə, Qəribli Aysel. Azərbaycan nitq mədəniyyəti. Bakı, “Şərq-Qərb”, 2018.<br>7. Çobanova Hüsniyyə. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya.Bakı, 2024<br>8. Xəlilov Buludxan. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya.Bakı, “Adiloğlu” nəşriyyatı, 2021<br>9. Məmmədli Nadir. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya. Dərslik. Bakı, “Elm və təhsil”, 2021.<br>10. İsmayılova Mirvari. Azərbaycan dilində akademik kommunikasiyanın aktual problemləri. Bakı, ADPU, 2022.<br>11. Şiriyev Fikrət. Azərbaycan dilinin nitq mədəniyyəti və kommunikasiya. Dərs vəsaiti. Bakı, “Elm və təhsil”, 2020.<br>12. İletişim bilimi. Editör. Prof. Dr. Ece Karadoğan Doruk. İstanbul, 2017.<br>13. Uzun R. İletişim etiği: sorunlar ve sorumluklar. Gazi Üniversitesi Yayınları, 2007.<br>14. Jensen J.V. Ethical issues in the communication process. New Jersey, 1997<br>15. https://klv.az/ - ədəbiyyat və mədəniyyət saytı<br>16. https://kulis.az/ - ədəbiyyat və mədəniyyət portalı<br>**Semestr boyu oxunulacaq kitablar**<br>17. Cəlalə Nəzəroğlu. Ürəkli danış, səhnə sənindir! Bakı, Qanun nəşriyyatı, 2023.<br>18. Navarro Co, Karlins Marvin. Bədən dili. Bakı, “Xan” nəşriyyatı, 2015.<br>19. Qurban Səid. Əli və Nino. Roman. Bakı, Qanun nəşriyyatı, 2015.<br>20. Doğan Cüceloğlu. İletişim donanımları. Ankara, 2002. | |

| | | | |
|---|---|---|---|
| | | | |
| **Tədris metodları** | Mühazirə | | + |
| | Qrup işləri | | + |
| | Rollu oyunlar | | + |
| | Təqdimatlar | | + |
| | Sokrat dialoqu (sual-cavab) | | + |
| **Qiymətləndirmə** | **Komponentlər** | **Tarix/son müddət** | **Faiz (%)** |
| | Aralıq imtahanı | | 30 |
| | Fəallıq | | 5 |
| | Yoxlama 1 | | 10 |
| | Yoxlama 2 | | 10 |
| | Final imtahanı | | 40 |
| | Davamiyyət | | 5 |
| | Yekun | | 100 |
| **Kursun təsviri** | Dünyada gedən qloballaşma, mədəniyyət və təhsildə baş verən inteqrasiya prosesləri gənc mütəxəssislərin qazandıqları bilik və bacarıqlara yeni tələblər diktə edir. Müasir dövrün peşəkarları ünsiyyət tərəfdaşlarını başa düşmək, onlarla əlaqə qurmaq, işgüzar danışıqlar aparmaq və dil mədəniyyətinin əsaslarını mənimsəmək üçün işgüzar əlaqələr sahəsində biliklərə ehtiyac duyur. Ali təhsilin bakalavriat pilləsi üçün nəzərdə tutulan “Azərbaycan dilində işgüzar və akademik kommunikasiya” fənni tələbələrə nəzəriyyə ilə yanaşı, dilin tətbiqi istiqamətlərini (yazılı və şifahi nitqin inkişaf etdirilməsi, lüğətlərdən istifadə və s.) mənimsətməyi, kommunikasiyanın növləri, ünsürləri, mərhələləri, funksiyaları və s. barədə təsəvvür yaratmaqdır. | | |
| **Kursun məqsədləri** | Fənnin məqsədi müasir Azərbaycan dilində işgüzar və akademik kommunikasiyanı, ictimai həyatda səmərəli davranışları, şifahi və yazılı ünsiyyət vərdişlərini formalaşdırmaq, mənimsətmək, bütün işgüzar resurslardan istifadə etməklə ümumi nitq mədəniyyətini yüksəltməkdir. Akademik savadlılıq akademik kommunikasiyanın başlıca komponentidir. Akademik səriştəliliyin formalaşdırılmasında məqsəd akademik mətnlərin tərtibinə verilən tələbləri mənimsətmək və şəxsi tədqiqat işlərinin istiqamətini müəyyən edərək yazmaq bacarıqlarını inkişaf etdirməkdir. Akademik mətnlərin müxtəlif janrlarının tərtibi haqqında biliklər vermək; şəxsi ideyaların yaranması bacarığını inkişaf etdirmək və onun elmi mətn şəklində tərtibi qaydalarını öyrənmək fənnin əsas məqsədlərindən biridir. | | |
| **Tədrisin (öyrənmənin) nəticələri** | **1.** Kommunikasiyanın əhəmiyyəti, mərhələləri və funksiyaları öyrənilir<br>**2.** Nitqin kommunikativ keyfiyyətlərinə (düzgünlük, təmizlik və s.) əməl olunur<br>**3.** Azərbaycan ədəbi dilinin normalar və üslublar sistemi mənimsənilir<br>**4.** Elektron işgüzar rabitə və poçt yazışmalarına qoyulan qaydalar mənimsənilir<br>**5.** İşgüzar ünsiyyətin dialoji və monoloji janrlarında özünü ifadə edə bilir<br>**6.** Şəxsi sənədləri (CV, tərcümeyi-hal, ərizə və s.) tərtibinə verilən tələblər öyrənilir<br>**7.** Akademik yazının növləri, yazılı elmi mətnlər, elmi işlərin tərtibi ilə tanış olur | | |
| **Qaydalar (Tədris siyasəti və davranış)** | **Davamiyyət:** Semestr boyunca tələbənin dərsə davamiyyəti qeyd edilir. Üzürsüz buraxılan 2 (iki) dərs üçün 1 (bir) bal çıxılacaq.<br>**Fəallıq:** Tələbənin sual-cavab, müzakirələrdə fəal iştirakı, dərsə hazırlıq səviyyəsi, mövzularla əlaqəli verilən tapşırıqları yerinə yetirməsi bu qiymətləndirməyə daxildir. | | |

| | | | |
|---|---|---|---|
| | | **Yazı çalışması:** Təqdim olunan tapşırıqlar yerinə yetiriləcək, əməli yazılar (ərizə) yazılacaq.<br>**Oxu calışması/bədii qiraət:** Semestr ərzində tapşırılan əlavə ədəbiyyat oxunulacaq.<br>**Final imtahanı:** İmtahanlarda testlər, açıq suallar və tapşırıqlardan istifadə ediləcək.<br>**Yoxlamalar:** Açıq və qapalı suallar, tapşırıqlar<br>**Qeyd:** Tələbə dərsin 25% iştirak etməzsə final imtahanına girmə haqqını itirir. | |
| **Cədvəl** | | | |
| **Həftə** | **Tarix** | **Fənnin mövzuları** | **Dərslik/Tapşırıqlar** |
| 1 | | "Azərbaycan dilində işgüzar və akademik kommunikasiya" fənninin təsviri. Kommunikasiya və ünsiyyət. Kommunikasiyanın ünsürləri, funksiyaları, mərhələləri. Nitq etiketlərinin növləri. Diskussiya mədəniyyəti və qaydaları. Müəyyən bir mövzu (Oxuduğunuz hansı əsər sizə dərin təsir eliyib və niyə? və s.) ətrafında müzakirə aparılır. | Mühazirə mətni. Mövzu ilə bağlı təqdim olunan tapşırıqları yerinə yetirmək. |
| 2 | | Qloballaşma şəraitində dillərin milli-mənəvi dəyər kimi qorunması. Azərbaycan dilinə dövlət qayğısı. Türk dilləri ailəsində Azərbaycan dilinin mövqeyi ."Dildə, fikirdə bir" ideyası (İ.Qaspıralı) və türklər üçün ortaq ünsiyyət dili anlayışı. | Mühazirə mətni. Mövzu ilə bağlı təqdim olunan tapşırıqları yerinə yetirmək. |
| 3 | | Dil və nitq anlayışı (F.Sössür), səciyyəvi xüsusiyyətləri. Nitqin tipləri: daxili və xarici nitq. Nitqin növləri: monoloji və dialoji nitq."Ürəkli ol, səhnə sənindir" (C.Nəzəroğlu). Hər bir tələbə tərəfindən müxtəlif mövzularda hazırlanmış çıxışlar təqdim olunur. | Mühazirə mətni. Mövzu ilə bağlı təqdim olunan tapşırıqları yerinə yetirmək. |
| 4 | | Nitqin formaları: yazılı nitq və şifahi nitq, səciyyəvi xüsusiyyətləri. Mətn və quruluşu. Planın tərtibi və növləri. Yazı işinin təşkili, növləri. Yaradıcı və görmə imlalar üzrə işin təşkil olunması. Esselərin yazılması. | Mühazirə mətni. Mövzu ilə bağlı təqdim olunan tapşırıqları yerinə yetirmək. |
| 5 | | Nitqin kommunikativ xüsusiyyətləri. Nitqin aydınlığı, təmizliyi, düzgünlüyü, zənginliyi, yığcamlığı və s. Nitqin təmizliyini pozan amillər barədə yaradıcı qrup işləri (səhnəciklər, slaydlar, araşdırmalar və s.) təqdim olunur. | Mühazirə mətni. Mövzu ilə bağlı təqdim olunan tapşırıqları yerinə yetirmək. |
| 6 | | Qeyri-verbal kommunikasiya vasitələri və nitq. Qeyri-verbal kommunikasiyanı müşayiət edən bədən dili. Pantomima teatrı. Qeyri-verbal kommunikasiyanın işlənmə sferası: rəsmi çıxışlarda və iş mühitində bədən dilindən istifadə. Pantomima oyununun təşkili. | Mühazirə mətni. Mövzu ilə bağlı təqdim olunan tapşırıqları yerinə yetirmək. |
| 7 | | Punktuasiya və yazılı nitqdə rolu. Azərbaycan dilində durğu işarələri, növləri (ayırıcı və fərqləndirici), işlənmə məqamları. Mövzu ilə bağlı sual və tapşırıqlar üzərində | Mühazirə mətni. Mövzu ilə bağlı təqdim olunan tapşırıqları yerinə yetirmək. |

| | | | |
|---|---|---|---|
| | | işləmək. Təqdim edilmiş mətn parçalarında durğu işarələrinin düzgün şəkildə qoyulması və s. | |
| 8 | | **Aralıq imtahanı**. | |
| 9 | | Azərbaycan dilinin fərdi və funksional üslubları.Bədii, publisistik və məişət üslubu, səciyyəvi xüsusiyyətləri. Qrup şəklində səhnələciklər təqdim olunur. Azərbaycan dilinə həsr edilmiş bir publisistik məqalənin və kiçikhəcmli bir əsərin (hekayə, novellla, nağıl və s.) təhlili aparılır. | Mühazirə mətni. Mövzu ilə bağlı təqdim olunan tapşırıqları yerinə yetirmək. |
| 10 | | Rəsmi-işgüzar üslub və səciyyəvi xüsusiyyətləri. Rəsmi sənədlər: konstitusiya,fərman və s.İşgüzar sənədlər: tərcümeyi-hal, arayış və s. CV və ərizələrin tərtib olunması qaydaları. Müəllimin izahından sonra ərizə hər bir tələbə tərəfindən müstəqil olaraq auditoriyada yazılır,cv hazırlamaq ev tapşırığı kimi verilir. | Mühazirə mətni. Mövzu ilə bağlı təqdim olunan tapşırıqları yerinə yetirmək. |
| 11 | | Azərbaycan dilinin elmi üslubu, akademik kommunikasiya. Akademik yazının növləri (dərslik, dissertasiya, avtoreferat və s.) və onlara qoyulan tələblər. Elmi üslubda olan mətnlər üzərində iş aparılır, səciyyəvi xüsusiyyətləri (mürəkkəb cümlələrin çoxluğu, termin sıxlığı, təkmənalılıq və s.) üzə çıxarılır. | Mühazirə mətni. Mövzu ilə bağlı təqdim olunan tapşırıqları yerinə yetirmək. |
| 12 | | Elmi tezis və məqalələrin quruluşu (xülasə, açar sözlər, giriş, məsələnin qoyuluşu və həlli, nəticə, ədəbiyyat) və hər bir hissədə nümunələr əsasında nələrin verilməli olduğu barədə məlumat verilir. Ali Atestasiya Komissiyasının (AAK) qoyduğu tələblərə uyğun olaraq tələbələrə elmi mətnlərin kodlaşdırılması, ədəbiyyat siyahısının tərtib edilməsi, elmi məcmuələrdə və konfrans materiallarında çap olunması prosesi və s. barədə məlumat verilir. | Mühazirə mətni. Mövzu ilə bağlı təqdim olunan tapşırıqları yerinə yetirmək. |
| 13 | | Azərbaycan ədəbi dilinin normalar sistemi. Dildə norma anlayışı. Fonetik, leksik və qrammatik səviyyələrdə normalar və onların pozulması halları. Mövzu ilə bağlı sual və tapşırıqlar üzərində işləmək. Təqdim edilmiş mətn parçalarında hansı norma pozuntularının olması və s. | Mühazirə mətni. Mövzu ilə bağlı təqdim olunan tapşırıqları yerinə yetirmək. |
| 14 | | Elektron işgüzar rabitə, faks, teleqraf və s. Elektron poçt yazışmaları (işgüzar və akademik), onlara verilən tələblər, üstünlükləri, çatışmazlıqları. Məktub yazmaq mədəniyyəti, tanınmış şəxslərin məktublaşmaları, məktublar şəklində olan əsərlər (epistolyar üslub) və s. barədə. Məktub yazmaq tapşırığı verilir (vətənə, uşaqlığınıza və s.). | Mühazirə mətni. Mövzu ilə bağlı təqdim olunan tapşırıqları yerinə yetirmək. |

| | | | |
|---|---|---|---|
| 15 | | Mədəniyyətlərarası ünsiyyət: dünya düzənində önəmi, fənn kimi yaranması, tədrisi, əhatə elədiyi mövzular və s. Multikulturallığın qeyri-verbal kommunikasiyada rolu. Müxtəlif mədəniyyətləri təmsil eliyən ünsiyyət formalarını nümayiş etdirmək (video formatında, canlı olaraq), əsərlərdən nümunələr vermək, müqayisələr aparmaq. | Mühazirə mətni. Mövzu ilə bağlı təqdim olunan tapşırıqları yerinə yetirmək. |
| 16 | | Yoxlama (testlər, açıq suallar, tapşırıqlar və s.) vasitəsilə kurs ərzində keçilmiş mövzuların mənimsənilməsi səviyyəsinin dəyərləndirilməsi. Yarımilliyin əvvəlində mütaliəsi tapşırılmış romanın (Qurban Səid “Ali və Nino”, Lev Tolstoy “Anna Karenina” və s.) təhlili. | Mühazirə mətni. Mövzu ilə bağlı təqdim olunan tapşırıqları yerinə yetirmək. |
| | | **Final** | |